# Azərbaycan-Türkiyə əlaqələri sarsılmazdır

Yanvarın 17-də Milli Məclisdə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri ilə Türkiyə Böyük Millət Məclisinin Xarici işlər komitəsinin sədri Volkan Bozkırın rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında əlaqələrin sarsılmazlığından, tarixi bağlılığından, ən mürəkkəb dövrdə bir-birinə dəstək olmalarından söz açıldı və hər iki ölkə üçün maraq doğuram məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov qardaş ölkənin parlamentarilərini Azərbaycanda görməkdən məmnun olduğunu bildirdi. Qeyd etdi ki, birgə fəaliyyətimizi genişləndirmək, bir millətin ümumi dəyərlərini qorumaq və yüksəltmək üçün əlaqələrimizi bundan sonra da bu yüksək səviyyədə davam etdirəcəyik.

Səməd Seyidov dedi ki, üç gündən sonra Azərbaycan tarixində baş vermiş ən qanlı, həm də ən şərəfli hadisələrdən biri - 20 Yanvar faciəsinin ildönümüdür. Bu faciə Azərbaycan tarixində həm də bir şərəf səhifəsidir. Digər tərəfdən, bu il həm də bizim üçün çox rəmzi ildir. Azərbaycan Xalq Cümhuriyyətinin 100 iliyini qeyd edəcəyik. Həmçinin Türk Qafqaz İslam Ordusunun Bakını erməni daşnaklarından azad etməsinin 100 illiyi minnətdarlıq hissi ilə xatırlanacaq. Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır.

Türkiyə Böyük Millət Məclisinin Xarici işlər komitəsinin sədri Volkan Bozkır qardaş Azərbaycanda olmağından və 2018-ci ilin ilk səfərini ölkəmizə etməkdən qürur duyduğunu dedi. O, Azərbaycanın uğurlarını və inkaşafını sevinc hissi ilə daimi izlədiyini və 2018-ci ilin Azərbaycan üçün çox önəmli bir il olduğunu vurğuladı: “Azərbaycan üçün önəmli olan hər şey Türkiyə üçün, bizim millətimiz üçün də önəmlidir. Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü bizim üçün də qürurvericidir. O zaman Cümhuriyyətin yaradılması əslində, Azərbaycan xalqının nə qədər qərarlı olduğunu, şəhidlər verərək özünəməxsus olana sahib çıxmasına və onu qorumasına dəlalət edir. Bu gün şəhidlərin məzarlarını ziyarət etdik. Onların şəhadəti ilə Azərbaycanın necə bu günlərə gəlməsini bir daha xatırladıq”.

* * *

Türkiyə Böyük Millət Məclisinin Xarici işlər komitəsinin sədri Volkan Bozkırın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupu ilə də görüşüb. Görüşdə Azərbaycan və Türkiyə arasında qarşılıqlı faydalı əməkdaşlığın, xüsusilə parlamentlərarası əlaqələrin inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb. Milli Məclisin Səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov münasibətlərin hazırkı səviyyəyə çatmasında hər iki ölkənin prezidentlərinin rolunu, onların mütəmadi qarşılıqlı səfərlərini xüsusi vurğuladı. Türkiyə Böyük Millət Məclisinin Xarici işlər komitəsinin rəhbəri Volkan Bozkır da Türkiyə-Azərbaycan münasibətlərinin sürətli inkişafında qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi və Bakıya belə səfərlərin daha da çox olacağını vurğuladı.

Qeyd edək ki, hər iki görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də müzakirələr aparıldı, Türkiyə və Azərbaycan birliyinin dünyaya sülh nümunəsi göstərdiyi diqqətə çatdırıldı.

Sonda Türkiyə Böyük Millət Məclisinin Xarici işlər komitəsinin sədri Volkan Bozkır Azərbaycana gəldikləri andan onlara göstərilən böyük diqqətə və səmimi dostluğa görə minnətdarlığını bildirdi.

***Elnur HADIYEV,***
***“Azərbaycan”***

Azərbaycan.- 2018.-18 yanvar.- S.2.